**Səfir Vada Cüniçinin Lənkəran səfəri**

28 aprel tarixində səfir Vada Cüniçi Lənkəran şəhərində rəsmi səfərdə olmuş, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov ilə nəzakət görüşü həyata keçirilmişdir. Yaponiya ilə Azərbaycan arasında mövcud olan çoxşahəli əməkdaşlıq münasibətləri yüksək qiymətləndirilmiş, “Ot kökləri və İnsan Təhlükəsizliyi” qrant proqramı layihələrinin nəticələri və gələcək planlar, bundan sonrakı iqtisadi mübadilə perspektivləri və “2022-ci il Yaponiya-Azərbaycan Dostluq İli” tədbirləri çərçivəsində dostluq əlaqələrinin inkişafı haqqında müzakirələr aparılmışdır.

Səfər zamanı səfir, Heydər Əliyev Xatirə Parkı, Heydər Əliyev Mərkəzi, Tarix-Diyarşunaslıq Muzeyi, “Laran” MMC qənnadı fabriki, Girdəni kəndində “Green East” MMC-nin çəltik sahələri və çəltik emalı zavodu, İstisu qəsəbəsində “Yaşıl çay” MMC-nin çay plantasiyası, Hirkan Milli Parkı, Xanbulançay gölünü ziyarət etmişdir.



c-b Taleh Qaraşov ilə nəzakət görüşü



“Laran” MMC qənnadı fabriki




“Green East” MMC Hirkan Milli Parkı



“Yaşıl çay” MMC-nin çay plantasiyası



Hirkan Milli Parkı